## İdman xəbərləri

# «Qəbələ» hazırlığa start verdi

"Qəbələ" yeni mövsümün hazırlığına start verib. Sənan Qurbanovun rəhbərliyi altında baş tutan hazırlıqda əsasən toplu çalışmalar yerinə yetirilib.

Xatırladaq ki, yeni mövsümə hazırlığın ilk mərhələsi iyunun 29-dək davam edəcək. Həmin gün "Qəbələ" Bakıda "Zirə" ilə yoxlama oyunu keçirəcək.

# «Qəbələ» Polşada 9-cu olub

"Qəbələ"nin 11 yaşadək futbolçulardan ibarət komandasının qatıldığı Polşanın Krakov şəhərində keçirilən "Murapol Cup" turnirinə yekun vurulub. Yarışın ilk günündə öncə Polşa klubları ilə qarşılaşan "qırmızı-qaralar" "Yagelloniya"ya 0:1 hesabı ilə uduzsa da, ardınca "Lexiya" üzərində qələbə qazanıb - 2:0. Komandamızın qollarına Uğur Kişiyev və Hüseyn Xasməmmədli imza atıb. Hollandiya "Herenven"i ilə 0:0 hesablı heç-heçə edən Şəhruz Mustafayevin baş məşqçisi olduğu komanda ABŞ təmsilçisi "Çikaqo İqls"ə məğlub olub. Qrup mərhələsinin son matçında İngiltərənin "Mançester Yunayted" klubu ilə üz-üzə gələn "Qəbələ" 0:2 hesabı ilə uduzub. Keçirdiyi 5 oyunda 4 xal toplayan komandamız qrup mərhələsini 5-ci pillədə başa vurub.



Turnirin həlledici günündə 9-12-ci yerlər uğrunda mübarizə aparan komandamız öncə "Rux"la (Polşa) qarşılaşıb. Ayxan Əmiraslanlının fərqləndiyi oyunun əsas vaxtı 1:1 hesabı ilə yekunlaşıb. Penaltilər seriyasında qələbə qazanan "qırmızı-qaralar" 9-cu yer uğrunda görüşdə Polşanın digər təmsilçisi "Qurnik"ə qalib gəlib - 2:1. Hər iki qolu Həzrət Səmədov vurub. Yekunda "Qəbələ" "Murapol Cup" turnirini 9-cu pillədə başa vurub.

Komandamız kuboka, baş məşqçi Şəhruz Mustafayev və futbolçu Rəsul Mirzəyev xüsusi mükafata layiq görülüb. Onlara mükafatları Polşa futbolunun məşhur simaları Miroslav Şimkovyak və Tomaş Frankovski təqdim edib.

# Böyük dramaturqun 120 illiyinə həsr olunmuşdur

***Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş tədbir keçirilib.***

***Tədbirdə Qəbələ Dövlət Peşə Tədris Mərkəzinin şagirdləri və Heydər Əliyev Mərkəzinin əməkdaşları iştirak ediblər.***

Tədbiri giriş sözü ilə muzeyin direktoru Həqiqət Rüstəmli açıb.

Çıxış edənlər XX əsr Azərbaycan ədəbiyyatının geniş şöhrət tapmış nadir simalarından olan Cəfər Cabbarlının klassik ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirliyi yaradıcılığının əsas qayəsinə çevirdiyini qeyd edib, böyük dramaturqun əsərlərinin nəfis şəkildə nəşr olunması üçün ölkə başçısı tərəfindən sərəncam verildiyini, bütün bunların Azərbaycan ədəbiyyatına, mədəniyyətinə göstərilən diqqət və qayğının təzahürü olduğunu diqqətə çatdırıblar.



Tədbirdə Cəfər Cabbarlının yaradıcılığından nümunələr səsləndirilib.

# Arpa yarmasının faydaları

Çox faydalı detik məhsul olan arpa yarması bir çox vitaminlər (A, B, E, K) və minerallar (fosfor, selen, kalium, maqnezium, sink və s.), fol və nikotin turşuları, qidalı liflərlə zəngindir.

Arpa yarması sıyığı və bu yarmadan hazırlanmış tərəvəz supları bağırsaqların fəaliyyətini yaxşılaşdırır, qəbizlikdən azad edir. Arpa yarması qidalı liflərlə olduqca zəngindir ki, bu liflər bağırsaqlara "süpürgə" kimi təsir edir.

Arpa yarmasının həlimi mədədə iltihab, qastrit, xoralar, eroziyalar zamanı çox yaxşı müalicəvi təsir edir. Belə həlim hazırlamaq üçün 250 qr arpa yarması üçün 1,5 litr qaynar su görtürülür. Arpanın üzərinə su tökülərək və vam odda 30 dəqiqəyədək qaynadılır.



Alınan selikli həlimi soyuducuda saxlanılır (2 gündən artıq saxlamaq olmaz) və gün ərzində 3 dəfə qida qəbulundan 20 dəqiqə əvvəl 100 ml həcmində qəbul edilir. Həlim mədənin selikli qişasını qoruyur, xora və eroziyaların sağalmasını sürətləndirir, antiseptik və iltihabəleyhinə təsir göstərir.

Arpa yarması qanda xolesterinin səviyyəsini aşağı salır, arıqlamağa da kömək edir. Səhər yeməyi zamanı 1 boşqab apra yarması sıyığı yeyin. Bu sıyıq sizi uzun müddət ərzində tox saxlayacaq və nahar yeməyi zamanı siz daha az qida qəbul edəcəksiniz.

Kalium və maqneziumla zəngin olan arpa yarması ürək üçün də çox faydalıdır.

## Bunları bilmək maraqlıdır

- Elektrik lampasını ixtira edən Tomas Edison orta məktəbdə cəmi 3 ay oxumuşdur. İlk 3 aylıq təlimdə ciddi irəliləyiş göstərə bilmədiyinə görə, müəlliməsi Toması "kütbeyin" adlandırmışdır.
- Bluetooth H və B hərflərinin birləşməsindən əmələ gələn Danimarka markasıdır! Bu 2 hərf danimarka qəbilələrini bir yerə yığıb azadlıq uğrunda mübarizə aparan, 10-cu əsrdə Danimarka kralı olan Harald Blatandın adı ilə bağlıdır!
- Dünyada çürüməyən yeganə süd dəvə südüdür.
- Zürafə öz balasını dünyaya gətirdiyi zaman bala zürafə 150 sm-lik hündürlükdən yerə düşür.
- Dünyanın ən iri hovuzu Çilidə San Alfonso Del Mar kurortunda yerləşir. Hovuz 8 hektar ərazini əhatə edir və 1013 metr uzanır. Hovuzun doldurulması üçün 250 milyon litr su lazımdır.
- 1913-cü ilə qədər ABŞ-da kiçik uşaqları poçtla kəndə - nənə-babasının yanına göndərmək mümkün idi...

## Dövlət kimi tanımır

***Pakistan dünyada yeganə ölkədir ki, Dağlıq Qarabağ məsələsindəki mövqeyinə görə Ermənistanı dövlət kimi tanımır.***

## İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Əfəndiyeva Məsgülü Dəmir qızına** verilmiş JN seriyalı 862 A nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Hacıbalayev Rəmzi Nadir oğluna** və ailə üzvlərinə verilmiş JN seriyalı 1595 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Seyidməmmədova Aşa Mirzəmməd qızına** verilmiş JN seriyalı 403 nömrəli (kod 40616018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən **Əhmədov Müşviq Zakir oğluna** verilmiş 09 iyun 2017-ci il tarixli A seriyalı 160196 nömrəli (reyestr nömrəsi 406013063907) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Aydınqışlaq kənd sakini **Bilalov Atakişi Süleyman oğluna** verilmiş JN seriyalı 057 A nömrəli (kod 40608038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Çarxana kənd sakini **Musayeva Qızxanım Əmirxan qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 005 B nömrəli (kod 40604048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2019-cu ilin ikinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**MƏHƏBBƏT XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**MƏHƏBBƏT XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1780